

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 143 (23.785)

10 avqust 2021-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymətı 20 qəpik


*Rəsmi xronika*




Avqustun 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev əsaslı şəkildə yenidən qurulan 500/330/220 kilovoltluq "Abşeron" yarımstansiyasının açılışında iştirak edib. Prezident İlham Əliyev "Abşeron" yarımstansiyasını işə salıb.

Yarımstansiya Azərbaycanın 4 ən böyük istilik elektrik stansiyası ilə əlaqələndirilib. Yarımstansiyanın əsaslı şəkildə yenidən qurulması ilə onun yükötürmə qabiliyyətinin artırılmasına, elektrik təchizatının etibarlığının və dayanıqlığının yüksəldilməsinə, itkilərin azaldılmasına, müasir standartlara cavab verən innovativ həllərin tətbiqinə nail olunub.

## H.H.İbrahimovun Naxçıvan Muxtar Respublikası Sədərək Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 141-ci maddəsini rəhbər tutaraq **qərara alıram:**

Həbib Hüseyn oğlu İbrahimov Naxçıvan Muxtar Respublikası Sədərək Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 9 avqust 2021-ci il*

## R.Q.Hacının Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri təyin edilməsi haqqında

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Ramil Qəşəm oğlu Hacı Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri təyin edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 9 avqust 2021-ci il*

## Miqrasiya proseslərinə nəzarət gücləndirilir

Naxçıvan Muxtar Respublikasında miqrasiya proseslərinə dövlət nəzarətinin gücləndirilməsi, qanunsuz miqrasiyanın qarşısının alınması məqsədilə Dövlət Miqrasiya Xidməti tərəfindən həyata keçirilən tədbirlər iyul ayında da davam etdirilib. Xidmət tərəfindən muxtar respublika ərazisində qanunsuz yaşayan və qeydiyyatsız olan, habelə müvəqqəti yaşamaq üçün icazə vəsiqəsini itirən 32 əcnəbi aşkarlanaraq Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq barəsində müvafiq tədbirlər görülüb.

Ötən ay Dövlət Miqrasiya Xidmətinə, ümumilikdə, 529 müraciət daxil olmuşdur. Daxil olan müraciətlərdən 135-i əcnəbilərə Azərbaycan Respublikasında müvəqqəti yaşamaq üçün icazənin verilməsi, əmək fəaliyyəti ilə məşğul olmaq üçün iş icazəsinin verilməsi, müvəqqətiolma müddətinin uzadılması, eləcə də vətəndaşlıq məsələləri ilə bağlı olmuşdur. Müraciətlərin hər biri ayrı-ayrılıqda Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə əsasən araşdırılmış, müvafiq qərarlar qəbul edilmişdir.

Ötən dövrdə olduğu yer üzrə qeydiyyatla bağlı 394 müraciət qeydə alınaraq icrası təmin olunmuş, həmin müraciətlərdən 103-ü elektron xidmətlər portalı və elektron poçt üzərindən qəbul olunmuşdur.

Dövlət Miqrasiya Xidməti tərəfindən fəaliyyət istiqamətlərinə uyğun olaraq maarifləndirmə tədbirləri aparılmışdır.

***Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin mətbuat xidməti***

*Dövlət proqramı icra olunur*

## Kənd təsərrüfatının davamlı inkişafı təmin edilir

***İqtisadiyyatın ayrılmaz hissəsi olan kənd təsərrüfatının sürətli inkişafının nəticəsidir ki, muxtar respublikada ümumi daxili məhsulda bu sahənin payı ildən-ilə artır. Kənd təsərrüfatında reallaşdırılan genişmiqyaslı islahatların sayəsində muxtar respublikada bəzi məhsullar üzrə məhsuldarlığın artırılması və idxalın yerli istehsalla əvəzlənməsi sahəsində müsbət nəticələr əldə olunmuşdur.***

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 29 mart tarixli Sərəncamı ilə təsdiq olunmuş "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalı, emalı və ixracının stimullaşdırılmasına dair Dövlət Proqramı" isə bu istiqamətdə atılan növbəti addımdır. Təsdiq olunan yeni Dövlət Proqramının həyata keçirilməsi üzrə 16 bənddən ibarət olan Tədbirlər Planında Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin də qarşısına bir sıra mühüm vəzifələr qoyulmuşdur.

Dövlət proqramında qarşıya qoyulmuş vəzifələrə müvafiq olaraq muxtar respublikanın rayonlarının sosial-iqtisadi inkişaf perspektivləri nəzərə alınaraq kənd təsərrüfatına əsaslanan istehsal sahələrinin yaradılması, ailə təsərrüfatlarının fəaliyyətinin dəstəklənməsi istiqamətində tədbirlər davam etdirilmişdir. Belə ki, kənd təsərrüfatı məhsulları istehsalı, o cümlədən heyvandarlıq, arıçılıq, bağçılıq, soyuducu anbarın yaradılması, süd məhsullarının qablaşdırılması məqsədilə 2021-ci ilin ikinci rübü ərzində 39 layihənin maliyyələşdirilməsinə, ümumilikdə, 1.096.650,0 manat həcmində dövlət maliyyə dəstəyi göstərilmişdir. Bu istiqamətdə 32 layihə üzrə işlər başa çatdırılmış, 35 layihə üzrə işlər davam etdirilmişdir.

Kənd təsərrüfatı yönümlü istehsal sahələrinin yaradılması emal sahələrinin inkişafını sürətləndirməklə yanaşı, çoxşaxəli ailə təsərrüfatlarının formalaşmasına da şərait yaradır. Bu məqsədlə cari ilin ikinci rübü ərzində Sahibkarlığın İnkişafı Fondu tərəfindən müxtəlif sahələr üzrə 25 ailə təsərrüfatına 424.900 manat həcmində dövlət maliyyə dəstəyi göstərilmişdir.

İqtisadi inkişafın müasir mərhələsində mühüm məqsədlərdən biri idxalın məhdudlaşdırılması və bu əsasda yerli məhsul istehsalının stimullaşdırılması, nəticə etibarilə, ixracyönümlü məhsul istehsalının həcminin artırılmasından ibarətdir. Buna görə də nəzərdə tutulan tədbirlər məhz kənd təsərrüfatı məhsulları istehsalının artırılması, bununla da daxili tələbatın ödənilməsi ilə ixrac məhsullarının həcminin artırılmasını hədəfləyir. Bu məqsədlə potensial ixrac bazarlarında baş verən tendensiyalar öyrənilmiş, ixrac potensiallı kənd təsərrüfatı məhsullarının bu bazarlara çıxarılması istiqamətində araşdırma aparılmış və təkliflər hazırlanmış, sahibkarlar üçün təqdimatlar keçirilmişdir.

Kiçik təsərrüfatların birləşməsi, istehsal olunan məhsulların qablaşdırılması, xaricdə keçirilən beynəlxalq tədbir və sərgilərdə sahibkarların iştiraklarının vacibliyi barədə tədbir iştirakçıları ilə 4 halda maarifləndirmə istiqamətində görüşlər keçirilmişdir. Yerli məhsulların, o cümlədən tələbatdan artıq istehsal olunan kənd təsərrüfatı məhsullarının ixracı və sahibkarların xarici ölkələrdə ticarət tərəfdaşlarının tapılması məqsədilə görülən tədbirlər nəticəsində Azərbaycanın digər regionlarına kənd təsərrüfatı məhsulları göndərilmişdir.

"İstehlak Mallarının Ekspertizası Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətinin Mərkəzi Qida Sınaq Laboratoriyası tərəfindən 2021-ci ilin ikinci rübü ərzində meyvə araqları və tütün məmulatlarının Polşaya, İran İslam Respublikasına və Bakı şəhərinə maneəsiz şəkildə çıxarılması məqsədilə 5 halda mənşə sertifikatı verilmişdir.





İxrac qabiliyyətli müəssisələrin istehsal potensialından tam istifadə etmələri üçün sahibkarlıq subyektləri ilə birgə təhlillərin aparılması davam etdirilmiş, mövcud çətinliklər və maneələrin, yeni bazarlara çıxış imkanlarının müəyyənləşdirilməsi məqsədilə 15 sahibkarlıq subyekti ilə birgə təhlillər aparılmış müvafiq təkliflər hazırlanmışdır.

Muxtar respublikada istehsal olunan məhsullarımızın tanıdılması, yeni bazarlara çıxış imkanlarının artırılması məqsədilə Latviyanın Riqa şəhərində yerləşən "Azərbaycan ticarət evi" ilə müzakirələr aparılmış, yerli məhsullarımızdan ibarət tanıtım materialları təqdim edilmişdir. Bu tədbirlərin davamı kimi 39 ixrac potensiallı sahibkarlıq subyektinin və ailə təsərrüfatlarının məhsullarını əks etdirən "Naxçıvan məhsulları ixrac kataloqu" hazırlanmış və 250 ədəd kataloq çap edilmişdir.

Proqramın həyata keçirilməsi üçün nəzərdə tutulmuş tədbirlər planında görüləcək işlər sırasında yerli xammala əsaslanan yun tədarükü və iplik istehsalı müəssisəsinin yaradılması və qarğıdalı yağı istehsalına başlanılması nəzərdə tutulmuşdur. Bu istiqamətdə dövlət maliyyə dəstəyi hesabına Naxçıvan şəhərində Naxçıvan Regional Yun və Təbii Boyaq Bitkilərinin Tədarükü Məntəqəsinin yaradılması başa çatdırılmış, yun iplik istehsalı sahəsinin yaradılması məqsədilə layihənin hazırlanması işləri davam etdirilmişdir. Bununla yanaşı, hazırda tələbatı idxal hesabına ödənilən bitki yağı istehsalı layihəsi üzrə avadanlıqların alınması üçün istehsalçı şirkətlə müqavilə bağlanmış və layihənin reallaşdırılması istiqamətində işlər aparılmışdır.

Gübrələrin baha olması, onun tətbiqi zamanı gübrə qalıqlarının yetişən məhsulda toplanması təsərrüfat sahiblərini alternativ üsulları tətbiq etməyə vadar edir. Bu üsullardan biri də kompostlardan istifadə etməkdir. Kompost gübrə istehsalı sahəsinin yaradılması istiqamətində tədbirlər davam etdirilmiş, istehsal gücü günlük 4 ton olan üzvi gübrə istehsalı sahəsinin layihəsi hazırlanaraq sahibkarlar üçün təqdimatı keçirilmişdir.

Aparılan məqsədyönlü tədbirlər nəticəsində 2021-ci ilin ikinci rübü ərzində dövlət maliyyə dəstəyi hesabına Culfa rayonunda kompost və torf istehsalı sahəsinin yaradılması məqsədilə bir sahibkarlıq subyektinə 30 min manat həcmində dövlət maliyyə dəstəyi göstərilmişdir.

Müasir texnologiyalar əsasında qurudulmuş və dondurulmuş meyvə-tərəvəz emalı müəssisələrinin qurulması, bu sahədə fəaliyyətin təşviq edilməsi proqramın əsas məqsədlərindən biridir. Bu istiqamətdə yeni istehsal sahələrinin yaradılması məqsədilə Sahibkarlığın İnkişafı Fonduna müraciət edən sahibkarlıq subyektlərinə göyçənin qurudulması və qablaşdırılması, meyvə lavaşanası istehsalı sahəsi, meyvə-tərəvəz məhsullarının qurudulması sahəsi üzrə hazırlanmış layihələr təqdim edilmiş və həmin sahələrin rentabelliyi barədə geniş məlumatlar verilmişdir.

Muxtar respublikamızda qızılgül əkini sahələrinin genişləndirilməsi, gülab və gül yağı istehsalının dəstəklənməsi, xüsusilə diqqətdə saxlanılmış, 1 hektar sahədə qızılgül əkini üzrə layihə hazırlanaraq sahibkarlar üçün təqdimatı keçirilmiş, bu bitkinin əkin sahəsinin genişləndirilməsinin əhəmiyyəti və iqtisadi səmərəsi barədə sahibkarlar ətraflı məlumatlandırılmışdır.

*Qəbul edilmiş Dövlət proqramının uğurlu icrası aqrar sahədə kiçik sahibkarlığı, ailə təsərrüfatlarını inkişaf etdirməyə geniş imkanlar yaratmaqla yanaşı, əhalinin və emal müəssisələrinin kənd təsərrüfatı məhsullarına olan tələbatının ödənilməsinə də töhfə verəcəkdir.*

**Çinarə BALAYEVA**
***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat və ictimaiyyətlə əlaqələr üzrə baş məsləhətçisi***

Təhsil millətin gələcəyidir

# Naxçıvan Dövlət Universitetində Texnoparkın yaradılması əlamətdar hadisədir

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun "Naxçıvan Dövlət Universitetində Texnologiyalar Parkının yaradılması haqqında" 2020-ci il 14 dekabr tarixli Sərəncamına əsasən universitetdə 2 hektar ərazini əhatə edən, müxtəlif elm sahələri üzrə təcrübə-konstruktor, elmi-tədqiqat və startap layihələrinin mühüm elmi nəticələrinin sənaye və xidmət sahələrində tətbiqini həyata keçirən sosial, mədəni, mühəndis-kommunikasiya təminatı olan obyektlər kompleksindən ibarət Texnologiyalar Parkı (Texnopark) yaradılacaq.***

### *Texnologiyalar Parkı nədir*

Azərbaycanda ali təhsil müəssisələrində texnoparkların yaradılması yeni təcrübədir. Ölkəmizdə iqtisadiyyatın davamlı inkişafı və rəqabət qabiliyyətinin artırılması, müasir elmi və texnoloji nailiyyətlərə əsaslanan informasiya və kommunikasiya texnologiyaları sahələrinin genişləndirilməsi, elmi tədqiqatların aparılmasını təmin etmək məqsədilə müasir komplekslər – Yüksək Texnologiyalar parkları (Texnopark) yaradılır. Ölkəmizdə biliklərə əsaslanan iqtisadiyyatın formalaşdırılması üçün elmi-texniki infrastrukturun modernləşdirilməsi, elmin, təhsilin və istehsalatın inteqrasiyasının təmin edilməsi bir vəzifə olaraq qarşıya qoyulmuşdur.

Texnoparkların, texnoloji mərkəzlərin, biznes inkubatorlarının şəbəkəsinin genişləndirilməsi və inkişafı əsas məqsəddir. Yəni yaxın illərdə təhsildə, elmdə, digər intellektual sahələrdə ciddi dönüş yaratmaq və informasiya, eləcə də biliklər iqtisadiyyatının qurulması prosesini intensivləşdirməkdən ibarətdir. Texnoparkların əsas struktur vahidi mərkəzlər hesab olunur. Buraya innovasiya-texnoloji mərkəz, tədris mərkəzi, məsləhət mərkəzi, informasiya mərkəzi, marketinq mərkəzi, sənaye mərkəzi, maliyyə-sığorta mərkəzi, mühasibat-audit mərkəzi, strateji tədqiqat mərkəzi daxildir. Dünya iqtisadiyyatında texnoparklar innovasiyalı iqtisadiyyatın əsas hərəkətverici qüvvəsi hesab edilir. Milli iqtisadiyyatın yeni sahələrinin formalaşmasında və rəqabətqabiliyyətli olmasında texnoparkların böyük rolu vardır. Məsələn, ABŞ, Hindistan, Çin və sair kimi ölkələr informasiya kommunikasiya texnologiyaları (İKT) sahəsində dünya səviyyəsində qabaqcıl olmalarına görə məhz texnoparklara minnətdardır.

Ona görə də uşaq bağçalarından başlayaraq ibtidai və orta məktəblərdə yüksək texnologiya ideyasını təbliğ və nümayiş etdirmək, təcrübi, praktik yönümlü dərslərə daha çox fikir vermək vacibdir. Mühəndislik fakültələrində "əllə yaratmaq", məşğələləri tətbiqi layihələr üzərində qurmağa ciddi önəm verilməlidir. Robot, elektromobil, günəş enerjisi ilə işləyən maşın (avtomobil), orijinal proqramların yazılması, kiçik peyk düzəltmək, tullantıların yeni üsullarla emalı üzərində fikirləşmək lazımdır. Sənaye müəssisələri (orta və kiçik/dinamik) olmasa, universitet-sənaye münasibətləri inkişaf etməz və texnopark fəaliyyəti ciddi nəticə verməz. Müxtəlif, amma bir-biri ilə sıx bağlı olan fəaliyyətləri həm fiziki yer, həm funksional baxımdan birləşdirmək lazımdır: Yüksək texnologiyaların inkişafının dünya təcrübəsi göstərir ki, texnoparkın səmərəli fəaliyyəti onu elm, sənaye və ali təhsil innovasiya fəaliyyəti subyektləri – texnoparklar, sənaye parkları müəssisələrin kompakt yerləşdiyi yaşayış məntəqələrində – texnopolislərdə təşkil etmək məqsədəuyğundur. Universitetlərin professor-müəllim, tələbə və elmi-texniki heyəti kifayət qədər elmi nəticələrə, ixtira və patentlərə malikdir, aktiv elmi-texniki innovasiya fəaliyyəti həyata keçirirlər. Universitetlər elmi-texniki və innovasiya fəaliyyətində geniş beynəlxalq əməkdaşlıq və beynəlxalq layihələrdə iştirak etmək təcrübəsinə malikdirlər. Universitetlər xırda və orta sənaye müəssisələri ilə birgə geniş elmi-texniki və innovasiya fəaliyyəti həyata keçirirlər. Müasir dövrdə informasiya cəmiyyətinin biliklərə əsaslanan iqtisadiyyatın qurulmasında texnoloji biliklərin mərkəzinə çevrilən universitetlər mühüm rol oynadığından ali məktəb texnopark vəhdətinin yaradılması da son illər geniş inkişaf tapmışdır.

Belə texnoparklar bir və ya bir neçə universitet, həmçinin elmi-tədqiqat mərkəzləri ilə birbaşa və ya ortaq fəaliyyətləri ilə əlaqədar olub, tərkibində elmi nəticələrə və yüksək texnologiyalara əsaslanan müəssisələrin yaranmasına və onların inkişafına təşəbbüs göstərmək məqsədilə qurulur. Universitet Texnoparkında fəaliyyət göstərən müəssisələrə innovativ elmi nəticələrin transfer edilməsi və işin idarə olunması sahələrində dəstək verir. Bu proseslərdə bütün yanaşmalar təşəbbüskarlıq və müəllif hüquqlarının qorunması müstəvisində həyata keçirilir. Beləliklə, texnoparklar yeni ideyaların formalaşmasından başlayaraq onların tətbiq olunması və inkişaf etdirilməsinədək hərtərəfli şəraitin olduğu innovativ fəaliyyətləri təmin edən məkandır. Başqa sözlə, texnoparklar insan kapitalını sürətlə inkişaf etdirən, yüksək texnologiyalar istehsal edən qurumlardır. Belə qurumlar universitetlərin tərkibində olduqda daha aktiv fəaliyyət göstərə bilirlər.

Texnoparkın əsas təsisçilərindən birinin ali məktəb olmasına baxmayaraq, kommersiya strukturu kimi onun idarə olunmasını ali məktəb deyil, biznesdə artıq müəyyən müvəffəqiyyətlər qazanmış və onu özünün əsas fəaliyyət sahəsi sayan sahibkar həyata keçirir. Başqa sözlə, texnopark yüksək texnologiyalar və innovasiyalar əsasında biznes fəaliyyəti göstərən sərbəst, kommersiya baxımından əlverişli və səmərəli müəssisədir.




Texnopark dedikdə kiçik və orta elmtutumlu innovasiya şirkətlərinin inkişafı üçün maksimum əlverişli mühitin formalaşdığı elmi-istehsalat kompleksi, elmi fəaliyyətin nəticələrinin məhsula çevrilməsi və bazara çıxarılması kimi başa düşülür. Texnoparklar bir və ya bir neçə universitet, həmçinin elmi-tədqiqat mərkəzləri ilə birbaşa və ya ortaq fəaliyyətləri ilə əlaqədar olub, tərkibində elmi nəticələrə və yüksək texnologiyalara əsaslanan şirkətlərin qurulması və inkişafına təşəbbüs göstərmək üçün qurulmuş kompleksdir. Belə desək, texnoparklar yeni ideyaların formalaşmasından başlayaraq onun tətbiq olunması və inkişaf etdirilməsi üçün hərtərəfli şəraitin olduğu (müəssisələrlə ortaq fəaliyyətlər və sair) innovativ fəaliyyətləri təmin edən məkandır.

### *Texnologiyalar Parkının yaradılması muxtar respublikada təhsilin inkişafı istiqamətində mühüm addımdır*

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 3 aprel tarixli Sərəncamı ilə muxtar respublikanın təhsil tarixində yeni bir dövrün başlanğıcı qoyulub. Həmin Sərəncamla, ümumilikdə, 109 ixtisas və 1 lisey 36 təşkilata hamiliyə verilib. Sərəncamda "İdeyadan başlanğıca!" devizi ilə innovasiyaya və dayanıqlı inkişafa əsaslanan, yaradıcı düşüncənin və elmi-texniki tərəqqini əks etdirən yeni layihələrin – startapların həyata keçirilməsi nəzərdə tutulub. Ölkəmizdə startapların inkişafı üçün dövlət və özəl müəssisələr tərəfindən qrantların ayrılması yeni uğurlu startapların yaranmasını stimullaşdırır. Respublikada gələcəyi uğurlu görünən startaplar yaranması üçün kifayət qədər səbəblər var. Elmi-texniki araşdırmaların, kəşflərin, ixtiraların, kiçik və yeni şirkətlər tərəfindən aparılan hər hansı riskli, lakin perspektivli xarakter daşıyan yeniliklərin tətbiq edilməsinin kreditləşdirmə və innovasiya fəaliyyəti subyektləri: texnoparklar, sənaye parkları maliyyələşdirilməsi üçün vençur şirkətlərə böyük ehtiyac var.

Ölkəmizdə vençur təşkilatları ilə startaplar arasında əməkdaşlığı gücləndirmək və vençurların startap layihələrə marağını artırmaq lazımdır. Bu əməkdaşlığın inkişaf etməsi üçün dövlət dəstəyinə ehtiyac duyulur. Startap layihələrinin uğurlu olması üçün Azərbaycan bazarına uyğun olan rəqabətdavamlı layihələr hazırlanmalıdır. Startapların istiqamətləri bazarın tələbatına uyğun formalaşmalı, doğru qurulmuş maliyyə siyasəti əsasında qurulmalıdır. Startap layihələrinin uğur qazanması üçün digər faktorlardan biri doğru komanda və rəqabətə davamlılıqdır. Yanlış qiymət siyasəti, zəif məhsul, zəif marketinq, müştərilərə qarşı diqqətsizlik, məhsulu vaxtında çatdırmamaq startap layihələrin uğur qazanmasına mane olan başlıca amillərdəndir.

Texnoparkların yaradılmasında əsas məqsəd biliklərin və ixtiraların texnologiyalara, həmin texnologiyaların isə kommersiya məhsuluna çevrilməsi, tədqiqatlara yönəldilmiş milli xərclərin səmərəliliyinin yüksəldilməsi, kiçik elmtutumlu sahibkarlıq sektoru vasitəsilə texnologiyaların sənayeyə ötürülməsi, elmtutumlu müəssisələrin formalaşması və onların bazarda təşəkkülü, elmtutumlu biznes sahəsində müəssisələrin dəstəklənməsi, sənayenin strukturunun yenidən qurulması, regional qeyri-mütənasib inkişaf səviyyəsinin azalması, məşğulluq probleminin qismən həlli, yüksək texnologiyalar sahəsində elmi-texniki nailiyyətlərin sürətli tətbiqidir. Bu qurumlar, eyni zamanda yüksək texnologiyalara əsaslanaraq inkişaf etdirilən sənaye sahələrinin gücləndirilməsi, yeni bölgələrdə sənayenin inkişafının dəstəklənməsi, innovativ fəaliyyətlərin həyata keçirilməsi, təhsil və daha təsirli elmi-texniki nəticələrə malik fəaliyyət sahələri ilə səmərəliliyin artırılması, beynəlxalq arenada rəqabət qabiliyyətinin yüksəldilməsi məqsədlərini də güdür. Deyilənləri ümumiləşdirsək, bu qənaətə gələ bilərik ki, texnoparklar kiçik və orta elmtutumlu innovasiya şirkətlərinin inkişafı üçün maksimum əlverişli mühitin formalaşdığı elmistehsalat kompleksidir və əsasən, elmi fəaliyyətin nəticələrinin məhsula çevrilməsi, bazara çıxarılmasının təşkili ilə məşğul olur. Texnoparkın idarəedici təşkilatı texnoparkın fəaliyyətinin təşkilini, idarə olunmasını və inkişaf etdirilməsini həyata keçirən dövlətə məxsus kommersiya hüquqi şəxsdir. Texnoparklar aşağıdakılardan ibarətdir:

*İnkubasiya Mərkəzi*
*Texnoloji əməkdaşlıq ofisi*
*Texnoloji transfer ofisi*
*Universitet sənaye əməkdaşlığı*

Yüksək texnologiyalar istehsalının dörd təməl tərəfi vardır:

*Araşdırmaçı bacarıqları və həvəsi olan insan gücü*
*Yetərli məlumat bazası*
*Yetərli maliyyə dəstəyi*
*Proqramlı bir şəkildə elmi tədqiqatların aparılması*

Mövcud informasiyalardan məlum olur ki, texnoparkların yaradılmasında əsas məqsəd biliklərin və ixtiraların texnologiyalara, həmin texnologiyaların isə kommersiya məhsuluna çevrilməsi, tədqiqatlara yönəldilmiş milli xərclərin səmərəliliyinin yüksəldilməsi, kiçik elmtutumlu sahibkarlıq sektoru vasitəsilə texnologiyaların sənayeyə ötürülməsi, elmtutumlu firmaların formalaşması və onların bazarda təşəkkülü, elmtutumlu biznes sahəsində müəssisələrin dəstəklənməsi, sənayenin struktur yenidən qurulması, regional qeyri-mütənasib inkişaf səviyyəsinin azalması, məşğulluq probleminin qismən həlli, yüksək texnologiyalar sahəsində elmi-texniki nailiyyətlərin sürətli tətbiqidir. Bu qurumlar, eyni zamanda yüksək texnologiyalara əsaslanaraq inkişaf etdirilən sənaye sahələrinin gücləndirilməsi, yeni bölgələrdə sənayenin inkişafının dəstəklənməsi, innovativ fəaliyyətlərin həyata keçirilməsi, təhsil və daha təsirli elmi-texniki nəticələrə malik fəaliyyət sahələri ilə səmərəliliyin artırılması, beynəlxalq arenada rəqabət qabiliyyətinin yüksəldilməsi məqsədlərini də güdür. Naxçıvan Dövlət Universitetinin Təbiətşünaslıq və kənd təsərrüfatı fakültəsində kimya və biologiya laboratoriyaları lazım olan avadanlıq və reaktivlərlə zəngindir. Sözsüz ki, texnoparkda yaradılacaq laboratoriyalarda kimyanın, eləcə də biologiyanın son nailiyyətlərindən istifadə olunacaq və elmi istiqamətdə araşdırmalar daha da intensiv şəkil alacaqdır. Tələbələrin bu işə cəlb olunması əsas faktordur. Belə ki, dərsdənkənar saatlarda onlar müxtəlif elmi istiqamətlərdə öz araşdırmalarını aparacaq, bu işlərdə müəllimlər və tədqiqatçılar öz köməkliklərini göstərəcəklər.

Naxçıvan Dövlət Universitetində kiçik və orta elmtutumlu innovasiya şirkətlərinin inkişafı üçün maksimum əlverişli mühitin formalaşdığı elm-istehsalat kompleksi olub, əsasən, elmi fəaliyyətin nəticələrinin məhsula çevrilməsi və bazara çıxarılmasını təşkil edəcək texnoparkın yaradılması muxtar respublikanın təhsil tarixində mühüm hadisədir, təhsilin inkişafına dünya təhsil sisteminə inteqrasiyasına mühüm töhfədir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov 16 iyun 2021-ci il tarixdə Naxçıvan Dövlət Universitetində Texnologiyalar Parkının təməlatma mərasimində iştirak etmiş, burada çıxış edərkən demişdir: ***"Naxçıvan Dövlət Universitetinin nəzdində Texnologiyalar Parkının yaradılması zamanın tələbidir. Çünki XX əsr texnika, XXI əsr isə texnologiyalar əsridir. Təhsil də yeni texnologiyalar üzərində tədris olunmalı və gənclər müasir dövrün tələblərinə uyğun təhsil almalıdırlar. Texnopark tələbələrin dərsləri həm nəzəri, həm də praktik olaraq mənimsəmələrinə imkan verəcəkdir".***

*İnanırıq ki, göstərilən qayğıdan layiqincə istifadə edəcək və var qüvvəmizlə texnoparkımızın inkişafı üçün əlimizdən gələni əsirgəməyəcəyik.*

**Şəmil MAHMUDOV**
***Naxçıvan Dövlət Universitetinin Təbiətşünaslıq və kənd təsərrüfatı fakültəsinin dekanı, dosent***

# Qanunvericiliyin tələbləri diqqətdə saxlanılır

***Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzi tərəfindən iyul ayında müxtəlif istiqamətlər üzrə imtahanların keçirilməsi, dövlət qulluğuna dair qanunvericiliyin tətbiqinə nəzarət davam etdirilib, 1 dövlət orqanı tərəfindən 11 dövlət qulluqçusu barəsində qanuni qərar qəbul olunub.***

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin "Naxçıvan Muxtar Respublikasında müəllimlərin dövlət musiqi təhsili müəssisələrinə işə qəbulu, bilik və bacarıqlarının qiymətləndirilməsinin aparılması Qaydaları"nın təsdiq edilməsi haqqında 2019-cu il 8 may tarixli Qərarına əsasən iyunun 10-dan iyulun 1-dək musiqi təhsili müəssisələrində çalışan müəllimlərin attestasiya imtahanlarının müsahibə mərhələsi keçirilib. Müsahibə mərhələsində müəllimin praktik hazırlığı, peşəkarlıq və ifaçılıq qabiliyyəti yoxlanılıb. Komissiya müəllimlərin ixtisas bacarığını müvafiq meyarlar üzrə 5 ballıq sistem əsasında qiymətləndirib. Uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəbləri üzrə 379 müəllim müsahibə mərhələsində iştirak edib, onlardan 367-si uğur qazanıb və növbəti beş il ərzində dövlət musiqi təhsili müəssisələrində fəaliyyət göstərmək hüququ əldə edib.

"Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 3 aprel tarixli Sərəncamının icrasının təmin edilməsi məqsədilə Dövlət İmtahan Mərkəzinin əməkdaşları və könüllülərdən ibarət səyyar xidmət qrupu 6-7 iyul tarixlərdə Şərur və Ordubad rayon Təhsil şöbələrinin inzibati binasında bu rayonlarda və ətraf kəndlərdə yaşayan sakinlərə xidmət göstəriblər. İki gün ərzində, ümumilikdə, Şərur və Ordubad rayonlarında yaşayan 52 vətəndaşa səyyar xidmət göstərilib. Həyata keçirilən səyyar xidmət layihəsinin məqsədi vaxt və maliyyə itkisinin qarşısının alınması, rayonlarda yaşayan, elektron xidmətlərdən istifadə etməkdə çətinlik çəkən, Dövlət İmtahan Mərkəzinə gələ bilməyən vətəndaşlara səyyar elektron xidmət göstərmək olub.

Ötən ay müəllimlərin dövlət ümumi təhsil müəssisələrinə işə qəbulu üçün iyunun 10-da elan edilmiş müsabiqənin sənəd qəbulu başa çatıb, eyni zamanda Dövlət İmtahan Mərkəzi tərəfindən müəllimlərin dövlət musiqi təhsili müəssisələrində, Nazirlər Kabineti yanında "ASAN xidmət" Mərkəzində, digər dövlət qurumlarında, dövlət teleradio və mətbuat orqanlarında vakant vəzifələrin tutulması üçün müsabiqələr elan edilib. Elan edilmiş müsabiqələr üzrə sənəd qəbulu davam edir.

Hesabat dövründə Dövlət İmtahan Mərkəzi tərəfindən dövlət qulluğu sahəsində təşkil olunmuş hazırlıq kurslarında 98, müəllimlərin sertifikasiya imtahanları üçün hazırlıq kurslarında 346 nəfər olmaqla, ümumilikdə, 444, müəllimlərin işə qəbulu üzrə keçirilən sınaq imtahanlarında isə 52 nəfər iştirak edib.

***Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzinin mətbuat xidməti***

*Əfsanəyə dönən ömürlər*

# Şəhidlik – Vətən sevgisinin ən ali məqamı



***II Qarabağ müharibəsi tariximizin şanlı səhifələrinə qəhrəmanlıq salnaməsi, şərəf dastanı kimi yazıldı. 44 günlük Vətən müharibəsində rəşadətli ordumuz erməni qəsbkarlarının heç bir ağla və məntiqə söykənməyən saxta torpaq iddialarını puç edib, əzəli-əbədi torpağımız olan Qarabağımızı öz sahiblərinə qovuşdurdu. Bu müharibədə şücaətli ordumuz, cəsur əsgər və zabitlərimiz öz canı, qanı bahasına əbədi zəfər bayramını xalqımıza bəxş etdi. Torpaqlarımızın düşməndən azad olunması uğrunda böyük qəhrəmanlıq göstərən şəhidlərimizin, qazilərimizin, hərbi qulluqçularımızın ailələri isə bu gün dövlətimiz tərəfindən yüksək diqqət və qayğı ilə əhatə olunub. Bunun nəticəsidir ki, 26 İyun – Silahlı Qüvvələr Günündə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov şəhidlərimizin ailələri ilə görüşüb, 13 şəhid ailəsinə yeni mənzillərin açarlarını təqdim edib. Həmin şəhid ailələrindən biri də Bağır Ələkbərovun ailəsidir.***

Bağır Ələkbərov 1995-ci ildə Naxçıvan şəhərinin Əliabad qəsəbəsində hərbçi ailəsində dünyaya göz açmışdı. İbtidai təhsilini Naxçıvan şəhər 705 nömrəli tam orta məktəbdə almış, atasının xidməti ilə əlaqədar Culfa şəhərinə köçdüklərindən orta təhsilini buradakı 3 nömrəli tam orta məktəbdə başa vurmuşdu. 2013-2014-cü illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olmuş, hərbi xidmətini başa vurduqdan sonra isə müddətdən artıq həqiqi hərbi xidmətə başlamış və hərbi xidmətini Azərbaycan Silahlı Qüvvələrinin Naxçıvan şəhərində yerləşən “N” hərbi hissəsində gizir hərbi rütbəsində davam etdirmişdi.

2018-ci il mayın 20-dən 27-nə qədər Naxçıvan Muxtar Respublikasına qarşı ermənilərin növbəti təxribatı zamanı Xüsusi təyinatlı qüvvələrin tərkibində olan Bağır Ələkbərov Şərur rayonunun Günnüt kəndinin, Ağbulaq yüksəkliyinin, Qızılqaya, Qaraqaya dağlarının azad olunmasında, Dərələyəz mahalının Arpa kəndinin Azərbaycan Ordusunun nəzarəti altına keçməsi uğrunda gedən döyüşlərdə fəallıq göstərmişdi.

Bağır Ələkbərov 44 günlük Vətən müharibəsində Şuşanın, Xocavəndin, Hadrutun düşməndən azad olunmasında böyük şücaət göstərib və oktyabrın 15-i qəhrəmancasına şəhid olub. Ölkə başçısının müvafiq sərəncamları ilə ölümündən sonra “Vətən uğrunda”, “İgidliyə görə” və “Şuşanın azad olunmasına görə” medallarına layiq görülüb.

Şəhidimizin ailəsi ilə həmsöhbət olmaq üçün biz də bir ünvanın yolunu tutduq. İlk getdiyimiz ünvan şəhidimizin doğulub boya-başa çatdığı Əliabad qəsəbəsindəki evi oldu. Bu evin ümman qədər kədəri, dağlar qədər vüqarı, göylər qədər fəxri var. Evin hər küncü, bucağı ondan danışır. Hər yerdə onun adı çəkilir, onun xatirələri anılır.

Şəhidimizin otağında əyləşmişik... Ortalığa sükut çöküb... Kim bilir, bu lal sükut bir zamanlar hansı xoşbəxtliklərə, hansı sevinclərə şahid olub. Otağın bir küncündəki rəfin hər tərəfi onun xatirələri ilə doludur. Bir tərəfdə ailəsi ilə çəkdirdiyi, bəlkə də, həyatının ən xoşbəxt anlarını yaşadığı şəkilləri, keçmiş gözəl günlərinə boylanan xatirə əşyaları dayanıb. Digər tərəfdə isə Vətən göylərinin ənginliklərinə yüksəltdiyi, şəhid tabutunun üstünü bəzəyən üçrəngli, ay-ulduzlu bayraq asılıb. Rəfin üzərinə düzülmüş şəkillər izləyir bizi, çöhrəsindəki təbəssümlə, süzgün baxışlarla bizə elə baxır ki, sanki hiss edib onun üçün gəldiyimizi.

Gəldiyimizdən bəri ortalığa çökmüş bu sükutu pozmalıyam axı. Nə danışım? Kimdən soruşum onu? Kimi dindirim? Ürəyi övlad həsrəti ilə yanıb-qovrulan Əlaviyyə ananı?! Yoxsa oğul dağından üzünə qəm çökmüş Əsəd atanı?! Bilmirəm...

Ortalığa hakim kəsilən bu səssizliyi şəhidimizin atası Əsəd əmi pozur. Gözlərindəki oğul yanğısı hiss olunsa da, məğrur dayanıb, qürur hissi ilə deyir: – 1995-ci ilin fevral ayında ailəmiz daha da böyüdü, ocağıma isti nəfəs olan Bağırım dünyaya gəldi. Elə körpəlikdən hər şeyə can atmağı, ürəkli, qorxmaz davranışı, şirin-şəkər şıltaqlığı ilə



seçilirdi həmyaşıdlarından. Hərbçi ailəsində doğulduğu üçün kiçik yaşlarından hərbiyə böyük həvəsi var idi. Elə bu arzusu, xəyalı əlindən tutub onu Vətənin keşiyində durmaq kimi çətin və şərəfli bir işin ardınca apardı. 2013-cü ildə Xüsusi təyinatlı qüvvələrdə snayperçi kimi hərbi xidmətə başladı. Xidmətini qurtarmağa 3 ay qalmış nizam-intizamını, qabiliyyətini nəzərə alaraq ona gizir rütbəsi verilmişdi, döyüş və ictimai-siyasi hazırlıqda fərqləndiyinə və nümunəvi davranışına görə fəxri fərmanla təltif edilmişdi. Bağır arzularının ardınca getməkdən heç vaxt bezməzdi, yorulmazdı. Dövlət tərəfindən ixtisasını təkmilləşdirmək üçün Türkiyəyə göndərildi, burada Özəl qüvvət kəskin nişançı, sonra isə Özəl qüvvət uzman nişançı kurslarını uğurla başa vuraraq sertifikat aldı. Bu gün mən onunla fəxr edirəm. Fəxr edirəm ki, oğlum torpaqlarımızın düşməndən azad olunması uğrunda vuruşaraq şəhidlik məqamına yüksəlib. İndi ondan geriyə iki övladı yadigar qalıb. Onlar da Vətənimizin diqqət və qayğısı, nəvazişi ilə əsl vətəndaş kimi böyüyəcək, Bağırıma, atalarının şəhid adına layiqli övlad olacaqlar.

Əsəd əmiylə başladığımız söhbətə şəhidimizin anası ilə davam edirəm. Vüqarını oğlunun müqəddəs məqamından alan Əlaviyyə ana deyir ki, müharibənin ən şiddətli anında belə, onunla danışarkən bizə təskinlik verərdi. O, xalqını, millətini, Vətənini hər şeydən üstün tutardı. Vətən dara düşəndə onun qeyrətli oğulları ondan ötrü can verməli, qan tökməli, onun sipəri olmalıdır. Bağır da belə oğullardan idi. O, torpağa bağlılıq, Vətənə sədaqət ruhunda böyümüşdü. Elə bil torpaq üçün yaranmışdı. Bəlkə də, qismət, məsləhət belə imiş. Ölüm sevinməsin! Çünki o ölmədi. Əksinə, ölməzlik qazandı.

Evdən ayrıldıqdan sonra ayrı ünvana gəlmişəm. Şəhidimizin müqəddəs məzarı başındayam.

Salam, Şəhid qardaşım. Amalına, xəyalına, qeyrətinə qurban olum. Gəlmişəm müqəddəs məramından, məqamından danışam. Danış mənə... heç ayaq basdığın yerlərin daha öncə xəyalını qurdunmu? Səngərdəki təpənin arxasında vurulanda son dəfə göy üzünü seyr edib, mavi səmanı bəzəyən dumanda bütün həyatın canlandımı gözündə? Gözünü bürüyən bu duman sənin həyatındır, şəhidim – xəstələnəndə ananın yuxusuz gecələri, atanın nigaran baxışıdır. Bu duman yolunu səbirsizliklə gözləyən dostun, səni şəhid kimi vüqarla qarşılayan əzizlərindir.

Danış mənə, şəhidim...son dəfə səmaya baxanda ilk addım atdığın evini, uşaqlığını, bayraq əlində qaçdığın küçənizi, hərbi hissənin həyətində reallaşan arzularını xatırladınmı? Əlindən tutub addım atmağına kömək edən doğmalarının çiynində ən uca zirvəyə yola salındığını, şəhid xəbərin gələndə ananın harayadını, övlad itkisini göz önünə gətirdinmi? Həyat yoldaşının, övladlarının sənsiz keçirəcəkləri hər günün acısını düşündünmü heç? Bilmirəm... amma bildiyim tək bir şey var – o da arzunun, diləyinin 30 illik nisgilə, həsrətə son qoymaq, düşmən tapdağında gözü yolçəkən Cıdır düzünə, Şuşa qalasına uğrunda canından keçdiyin üçrəngli bayrağı sancmaq olduğunu. Bu amal səni ən ülvi məqama – şəhidliyə ucaltdı. Bir an belə, gözünü qırmadan sinəni düşmənə sipər etdin. Yaxşı bilirdin ki, çətin də olsa, övlad dağı verdiyin atan, anan şəhidliyinlə təsəlli tapacaq. Yaxşı bilirdin ki, anan “Oğul Vətən üçündür! Qanı bu torpağa halal olsun!” – deyib dik dayanacaq. Atan “Mən şəhid atası olduğum üçün fəxr edirəm” – deyib yoluna həsrətlə baxacaq, ürəyindəki hıçqırtıları boğacaq, tabutun gələndə ən əziz qonağıtək qarşılayacaq...

*Şəhidim, qəlbimizdə Bağır adlı bir dünya var, o dünyada Bağır kimi oğullar böyüyəcək, adı dillərdə deyiləcək, neçə-neçə gəncə örnək olacaq, yurduna xoşbəxtlik, sevinc bəxş edəcək. Məzarında rahat uyu. Hələlik, Şəhid qardaşım, hələlik...*

**Məcid RƏŞADƏTOĞLU**

# Naxçıvan Qarnizonu Qoşunlarında andiçmə mərasimləri keçirilib



Naxçıvan Əlahiddə Ümumqoşun Orduda, “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasında, Daxili Qoşunların “Naxçıvan” Əlahiddə Əməliyyat Briqadasında və Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Mülki Müdafiə Alayında keçirilən mərasimlərdə gənc əsgərlər Vətənə sədaqət andı içiblər.

Əlahiddə Ümumqoşun Orduda keçirilən mərasimdə əvvəlcə şəhidlərimizin əziz xatirəsi yad edilib və Dövlət Himnimiz səsləndirilib.

Gənc əsgərlər Azərbaycan Respublikasının mənafeyini, ərazi bütövlüyünü və müstəqilliyini canları bahasına qoruyacaqlarına and içiblər.

Tədbirdə hərbi andın mahiyyətindən danışan polkovnik Mübariz Rzayev şəxsi heyətə xidmətlərində uğurlar arzulayıb.

Gənc əsgərlərdən Emil Rəhimov hərbi andın və nizamnamələrin tə-



ləblərinə, Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına ciddi əməl edərək hərbi sirri qoruyacaqlarına, silah və döyüş texnikasını mükəmməl mənimsəyib həmişə saz, təmiz və döyüşə hazır vəziyyətdə saxlayacaqlarına söz verib.

Polkovnik Mehman Gülməmmədov Naxçıvan Qarnizonunun rəisi, general-polkovnik Kərəm Mustafayevin təbrikini şəxsi heyətə çatdıraraq bildirib ki, hər bir əsgər xidmət etdiyi hərbi hissədə döyüş tapşırıqlarının uğurla yerinə yetirilməsi üçün öz vəzifə borcunu şüurlu surətdə dərk etməli və xidməti vəzifələrini vicdanla yerinə yetirməlidir. Bu gün təntənəli surətdə Vətənə sədaqət andı içərək ordu sıralarına tam hüquqlu həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi daxil olan gənclərimiz bilməlidirlər ki, hərbi anda sadiq olan əsgər döyüş və xidməti fəaliyyətində vəzifə borcunu şərəflə yerinə yetirir, düşmən üzərində qələbəyə sarsılmaz inamı ilə döyüş qabiliyyətini və ustalığını daha da artırır.

Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Mülki Müdafiə Alayında keçirilən andiçmə mərasimindən sonra alayın qərargah rəisi, mayor Şərif Əsədov, leytenant İsmayıl Hənifəyev, əsgər Nicat Məmmədli, gənc əsgər Samir Qəhrəmanov əsgərləri təbrik ediblər.

Naxçıvan Muxtar Respublikası fövqəladə hallar nazirinin müavini, general-mayor Hikmət Kərimov çıxış edərək Azərbaycanın müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün etibarlı şəkildə qorunmasında Silahlı Qüvvələrimizin rolunu yüksək qiymətləndirib və ən xoş arzularını bildirib. Sonra fövqəladə hallar nazirinin təbrik teleqramı şəxsi heyətin diqqətinə çatdırılıb.

Andiçmə mərasimləri şəxsi heyətlərin təntənəli keçidləri ilə başa çatıb.

**Xəbərlər şöbəsi**

# Vətən müharibəsi iştirakçıları ilə görüş



12 avqust – Beynəlxalq Gənclər Günü münasibətilə keçirilən görüşdə baş leytenant Tural Tağıyev, Əli Aslanzadə, baş gizir Rüfət Tağızadə, müddətdən artıq hərbi xidmət hərbi qulluqçuları Elxan Babayev, Səttar Hüseynov və Cahandar Məhərrəmov iştirak ediblər.

Gənclər və idman nazirinin müavini, Azərbaycan Vətən müharibəsi Veteranları və Şəhid Ailələri Naxçıvan Muxtar Respublika Təşkilatının sədri Məcid Seyidov və Gənclər Fondunun icraçı direktoru Cəbi Quliyev 44 günlük Vətən Müharibəsindən şanlı qələbəmizdən, Ali Baş Komandan, Prezident cənab İlham Əliyevin siyasi iradəsi və bacarığı, qətiyyətli mövqeyi, qəhrəman əsgər və zabitlərimizin rəşadətindən söz açıblar. Çıxışlarda ölkəmizdə aparılan gənclər siyasətinin mühüm tərkib hissəsi kimi gənclər üçün milli şüura əsaslanan mühitin yaradılması, Vətənə sevgi və bağlılıq hisslərinin aşılanması, onların layiqli vətəndaş kimi formalaşdırılması istiqamətində görülən işlərin əhəmiyyəti xüsusi vurğulanıb.

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin baş zabiti, kapitan Nurlan Məhərrəmov görüşdə iştirak edən hərbçilərimiz barədə məlumat verib. Hərbçilərdən Tural Tağıyev və Elxan Babayev tədbirin təşkilində əməyi olan insanlara təşəkkür edib, göstərilən diqqət və qayğıya görə muxtar respublika rəhbərinə minnətdarlıqlarını ifadə ediblər.

Gəncləri maraqlandıran sualların cavablandırıldığı görüşdə hərbçilərimiz döyüş xatirələrini bölüşüb, Vətən, yurd eşqi ilə yaşamağın, ölkəmizin müstəqilliyinə xidmət etməyin qürurverici olduğunu vurğulayıblar.

Qeyd edək ki, görüş Gənclər və İdman Nazirliyi, Azərbaycan Vətən Müharibəsi Veteranları və Şəhid Ailələri Naxçıvan Muxtar Respublika Təşkilatı və Gənclər Fondu tərəfindən birgə təşkil olunub.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

# Ailə, qadın və uşaq hüquqları qorunur

***Naxçıvan Muxtar Respublikasında ailə, qadın və uşaq hüquqlarının qorunması iyul ayında da diqqətdə saxlanılmış, bir sıra görüş, seminar, təlim və monitorinqlər keçirilmişdir.***

Qadınların əl işlərinin satışına köməklik göstərilməsi məqsədilə muxtar respublikada fəaliyyət göstərən əl işləri mağazalarında, ümumilikdə, 8 qadının 392 manat dəyərində 9 əl işi satılaraq dəyəri iş sahiblərinə təqdim olunmuşdur. “Qadınların Dayanıqlı İnkişaf üçün Səlahiyyətləndirilməsi” layihəsində sərmayə kapitalı verilmiş qadınlardan 5-nin təsərrüfat sahəsində sərmayə kapitalından düzgün istifadə etmələri ilə bağlı monitorinq keçirilmiş, nöqsan aşkarlanmamışdır. Ordubad rayonunda yaşayan sağlamlıq imkanları məhdud və xüsusi qayğıya ehtiyacı olan ailənin üzvü olan qadınlar üçün toxuculuq təlimi keçirilmişdir.

Naxçıvan Muxtar Respublikasında uşaq hüquqlarının həyata keçirilməsinə dair yaradılmış elektron məlumat bankına 312 uşaq haqqında fərdi məlumat daxil edilmişdir. Culfa rayonunda fəaliyyət göstərən məktəbəqədər, ümumtəhsil məktəbləri və məktəbdənkənar müəssisələrdə sanitar-gigiyenik vəziyyətlə bağlı müvafiq müəssisələrin rəhbər şəxslərinin iştirakı ilə maarifləndirici seminar keçirilmiş, müvafiq sahə ilə əlaqədar hazırlanmış 50 broşür seminar iştirakçılarına paylanılmışdır. Muxtar respublikada uşaq hüquqlarının həyata keçirilməsinə nəzarət etmək məqsədilə valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş 2 uşağın evində monitorinq keçirilmiş, uşaq hüquqlarının pozulması halı aşkarlanmamışdır.

Hesabat dövründə valideyn himayəsindən məhrum uşaqların, şəhid, təkvalideynli və xüsusi qayğıya ehtiyacı olan ailələrin uşaqlarının yay tətili günlərində asudə vaxtlarının səmərəli keçirilməsi məqsədilə muxtar respublikanın istirahət guşələrinə, muzeylərə və tarixi abidələrə 4 dəfə ekskursiyası təşkil edilmişdir. Ekskursiyalarda, ümumilikdə, 99 uşaq iştirak etmiş, Naxçıvan Dövlət Film Fondunda vətənpərvərlik mövzusunda filmlər nümayiş olunmuşdur. Həmçinin ötən ay xüsusi kateqoriyadan olan uşaqların yay tətili günlərində asudə vaxtlarının səmərəli keçirilməsi məqsədilə “Saat Meydanı” turistik istirahət mərkəzində keçirilən 40 uşağın iştirakı ilə müəyyən olunmuş xətt üzrə şəhər gəzintisi, cizgi filminə baxış, əyləncəli oyunlar keçirilmiş, həmçinin uşaqlar şirniyyat və sərinləşdirici şirin sularla təmin olunmuşdur.

2021-ci il 21-23 iyul tarixlərdə Ağbulaq İstirahət Mərkəzində xüsusi qayğıya ehtiyacı olan ailələrin uşaqları, hər iki valideynini itirmiş və valideyn himayəsindən məhrum olmuş və təkvalideynli uşaqlar, eləcə də şəhid uşaqları olmaqla, ümumilikdə, 49 uşağın iştirak etdiyi “Yay məktəbi” təşkil olunmuşdur.

Komitəyə vətəndaşlar tərəfindən ailə, qadın və uşaq hüquqlarının qorunması ilə bağlı 44 şifahi, 1 yazılı və elektron ünvana 1 müraciət daxil olmuş, müraciətlərə qanunamüvafiq qaydada baxılaraq lazımi köməklik göstərilmişdir.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

*Muxtar respublika ərazisində ekoloji tarazlığın qorunması, əlverişli ekoloji mühitin yaradılması, insanların sağlam ətraf mühitdə yaşamasının təmin edilməsi məqsədilə uğurlu sosial-ekoloji siyasət həyata keçirilir. Bu işlərin davamı olaraq iyul ayında ətraf mühitin mühafizəsi, qanunsuz ov edilməsi, meşə fondu torpaqlarından qanunsuz istifadə, ətraf mühitə atılan tullantıların normadan artıq olması hallarına qarşı mübarizə aparılması məqsədilə 15 yoxlama-reyd keçirilmiş, 4 inzibati xəta qeydə alınmış və qanunauyğun tədbir görülmüşdür.*

## Ekoloji tarazlığın qorunması insan sağlamlığının qorunmasıdır

Muxtar respublikamızın təbiətinin qorunması üçün inzibati tədbirlərlə yanaşı, əhali arasında ekoloji-hüquqi maarifləndirmə tədbirləri də icra edilmişdir. Bu məqsədlə Babək rayonunun Vayxır kəndində ətraf kəndlərin də nümayəndələrinin iştirakı ilə əhali arasında ekoloji-hüquqi maarifləndirmə tədbiri keçirilmiş, ətraf mühitin mühafizəsi, brokonyerlik hallarına qarşı birgə mübarizə, yaşıllıqların artırılması, çay vadilərinin, suların qorunması və ailə təsərrüfatlarının inkişaf etdirilməsində yabanı meyvə, dərman bitkilərindən səmərəli istifadə yolları və torpaqların münbitliyinin qorunması haqqında müzakirələr aparılmışdır.

Sədərək Rayon Su Monitorinq Laboratoriyasında iyul ayı ərzində Araz çayının muxtar respublika ərazisinə daxil olan hissəsindən və Sədərək rayonu ərazisindən keçən "Şir arxı"ndan hər birindən 8, Arpaçayın muxtar respublika ərazisinə daxil olan hissəsində isə 4 olmaqla, ümumilikdə, 20 su nümunəsi götürülmüş və 194 analiz aparılmışdır.

Muxtar respublika ərazisində ekoloji tarazlığın qorunması sahəsində mühüm amil olan yaşıllıqların, meşələrin qorunması və artırılması diqqətdə saxlanılmışdır. Belə ki, ötən illərdə salınmış meyvə bağlarına aqrotexniki qaydada qulluq göstərilmiş, 12 hektar sahədə suvarma, 3 hektar sahədə alaq otlarından təmizləmə işləri aparılmış, 0,8 hektar sahədə yeni yaradılacaq toxmacarlıq sahəsi texnika vasitəsilə şumlanmış, toxmacarlıq sahələrinə 20 kiloqram gübrə verilmişdir. Cari ilin əvvəlindən təsdiq olunmuş toxum bölgüsünə uyğun olaraq 157 kiloqram müxtəlif meyvə və meşə cinslərinin toxumları tədarük olunmuşdur.

Muxtar respublika ərazisində meteoroloji şəraitin öyrənilməsi, hava haqqında dəqiq məlumatların, proqnozların hazırlanması, əlaqədar dövlət orqanlarının və ictimaiyyətin hidrometeoroloji məlumatlarla təmin edilməsi üçün zəruri tədbirlər ay ərzində də davam etdirilmişdir.

Geoloji Axtarış və Kəşfiyyat İdarəsi üzrə geoloji axtarış, çöl işləri, kameral və ümumi xarakterli işlər yerinə yetirilmişdir.

İyul ayı ərzində yaylaq mövsümü ilə əlaqədar olaraq Şahbuz rayonunun Batabat, Keçəldağ, Gömür dağı, Culfa rayonunun Kola və Dəmirli yaylaqları ərazisində məskunlaşmış fermerlərlə fərdi görüşlər keçirilmiş və yaylaqdan istifadə qaydaları haqqında maarifləndirici söhbət aparılmışdır.

Ötən ay nazirliyin hamiliyinə verilmiş ixtisaslarda təhsil alan tələbələrin və ekologiya könüllülərinin Şahbuz Dövlət Təbiət Qoruğu ərazisinə ekskursiyası təşkil edilmiş, gənclərə xüsusi mühafizə olunan təbiət əraziləri, onların yaradılması, əhəmiyyəti və həyata keçirilən mühafizə tədbirləri haqqında geniş məlumat verilmişdir. Tədbir iştirakçıları qoruğun muzey fondu ilə tanış olmuş, onlara qoruq ərazisində mövcud olan flora, fauna növləri və ərazidən tapılmış tarixi-mədəniyyət nümunələri haqqında geniş məlumat verilmiş, gəncləri maraqlandıran suallar cavablandırılmışdır.

***Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidməti***

## Gənclərin inkişafı və istirahəti üçün hərtərəfli şərait yaradılıb



Gənclərin intellektual biliklərinin və dünyagörüşlərinin formalaşdırılması, yaradıcılıq bacarıqlarının təkmilləşdirilməsinə stimul yaradılması, asudə vaxtlarının səmərəli təşkili, muxtar respublikamızın turizm imkanlarının onlar arasında tanıdılması və təbliği məqsədilə ötən ay ərzində bir sıra tədbirlər həyata keçirilib. Belə ki, Ağbulaq İstirahət Mərkəzində təşkil olunan 3 günlük "Yay məktəbi"ndə iştirakçılar üçün təlim, konsert proqramı, müxtəlif idman oyunları, müsabiqələr, intellektual yarışlar təşkil olunub və Azərbaycan filmləri nümayiş etdirilib. "Gənclik" Mərkəzində sağlamlıq imkanları məhdud uşaqların iştirakı ilə intellekt yarışı reallaşıb, "İdman və ədalətli oyunlar" mövzusunda respublika rəsm müsabiqəsində Naxçıvan şəhər 12 nömrəli tam orta məktəbin şagirdi İrəm Göktaşın iştirakı təmin olunub, təmsilçimizin ədalətli oyun və humanizm prinsiplərini önə çıxardığı əl işi 3-8 yaş qrupu üzrə III yerə layiq görülüb.

"Naxçıvanı tanıyaq!" devizi ilə gerçəkləşən növbəti ekskursiya çərçivəsində gənc partiya üzvləri Xalq şairi Məmməd Arazın ev-muzeyi, Şahbuz Dövlət Təbiət Qoruğu və Batabat Astrofizika Rəsədxanasını, Ağbulaq İstirahət Mərkəzini ziyarət ediblər. Azərbaycanın tarixində müstəsna xidmətləri olmuş şəxslərin, ərazi bütövlüyü uğrunda şücaət göstərmiş döyüşçülərin, o cümlədən Milli qəhrəmanların gənclər arasında tanıdılması məqsədilə könüllü gənclər tərəfindən "Qəhrəmanlar unudulmur" adlı videoçarxlar hazırlanıb və sosial şəbəkələrdə yerləşdirilib.

Hesabat dövründə bədən tərbiyəsi və idman sahəsində kütləviliyin artırılması, gənc nəslin sağlamlığının qorunması, vətənpərvərlik ruhunda tərbiyə olunması və sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyası istiqamətində Azərbaycanın Milli Qəhrəmanı Yusif Mirzəyevin xatirəsinə həsr olunan uşaqlar arasında kikboksinq üzrə muxtar respublika turniri, tir atıcılığı üzrə açıq birincilik, sağlamlıq imkanları məhdud yeniyetmələr arasında stolüstü tennis, "Naxçıvan" və "Culfa" komandaları arasında isə çimərlik voleybolu üzrə yoldaşlıq görüşləri keçirilib.

Ötən ay idmançılarımız uğurlu nəticələrlə yadda qalıblar: 1 Qızıl və 1 Gümüş medal əldə edən yeniyetmə idmançımız Sadiq Kərimov Ukraynada keçirilən universal döyüş növləri üzrə dünya kubokunun qalibi olub, Serbiyada təşkil olunan "Silver Lake - 2021 Open" və "Serbia Chess Open 2021" beynəlxalq şahmat turnirlərində iştirak edən təmsilçilərimizdən Nəsrin Babayeva qadınlar arasında birinci, Sadiq Qarayev 18 yaşadək şahmatçılar arasında ikinci olub, FIDE ustası Pərviz Qasımov uğurlu nəticə əldə edərək beynəlxalq usta normasını doldurub, digər 3 şahmatçımız isə reytinq xallarını yüksəldib. Məşqçi-müəllim Turan Hüseynov və 3 paralimpiyaçımız qolbol idman növü üzrə milli komandamızla birgə təlim-məşq toplanışında iştirak edib, komandamız toplanış çərçivəsində yoldaşlıq görüşünün qalibi olub. Naxçıvan Güləş Federasiyasının yetirməsi Hacı Əliyev və Naxçıvan Boks Federasiyasının yetirməsi Tayfur Əliyev "Tokio-2020" Yay Olimpiya Oyunlarında Azərbaycanı təmsil etmək imkanı əldə ediblər.

Muxtar respublikada fəaliyyət göstərən idman federasiyaları üçün mütəmadi təşkil olunan ekskursiyalar davam etdirilib, qrafikə uyğun olaraq budəfəki gəzintidə Şahmat, Güləş, Boks və Karate federasiyalarının təmsilçiləri müvafiq olaraq Naxçıvan Dövlət Xalça Muzeyində, "Əlincəqala" Tarix-Memarlıq Muzey Kompleksində, "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində və Cəmşid Naxçıvanski Muzeyində olublar.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Karate-do üzrə şəhər birinciliyi başa çatıb

***Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya İdman Kompleksində "Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq!" devizi altında qız və oğlanlar arasında karate-do üzrə Naxçıvan şəhər açıq birinciliyi keçirilib.***



Birincilikdə Naxçıvan şəhərinin idmançıları ilə yanaşı, Babək, Şərur və Sədərək rayonlarının da idmançıları mübarizə aparıblar. Açılış mərasimində çıxış edənlər tədbirin keçirilmə məqsədi və qaydaları haqqında idmançılara məlumat veriblər. Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyası və Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə keçirilən birincilikdə 50 idmançı 4 yaş qrupu üzrə 7 çəki dərəcəsində tatami üzərinə çıxıb.

Beynəlxalq qaydalar əsasında keçirilən yarışın yekun nəticəsinə əsasən 6-7 yaş qrupunda Xəyyam Məmmədov (+20 kiloqram, Naxçıvan), 8-9 yaş qrupunda Ayxan Musayev (-30 kiloqram, Naxçıvan), Kənan Həsənli (+30 kiloqram, Naxçıvan), 10-11 yaş qrupunda Dəniz Binyətli (-35 kiloqram, Naxçıvan), Rafiq Hüseynli (+35 kiloqram, Naxçıvan), 12-13 yaş qrupunda isə Qafar Hüseynov (-40 kiloqram, Naxçıvan) və Aminə Novruzzadə (-50 kiloqram, Naxçıvan) qalib adını qazanıblar.

Sonda hər yaş qrupunda I, II və III yerləri tutan idmançılara təşkilatçıların diplomları təqdim edilib.

**✍ Ceyhun MƏMMƏDOV**

## Biçindən sonra taxıl sahələrinin yandırılması yanğın təhlükəsizliyi baxımından yolverilməzdir

***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi tərəfindən bu il muxtar respublika ərazilərində ot-taxıl biçini dövründə yanğın təhlükəsizliyinin etibarlı təmin olunması və qabaqlayıcı tədbirlərin həyata keçirilməsi sayəsində taxıl zəmilərində yanğın hadisələri baş verməmişdir. Lakin biçindən sonra da taxıl sahələrinin yandırılması hallarına qarşı maarifləndirici tədbirlər görülsə də, bəzi fermerlər və torpaq mülkiyyətçiləri tərəfindən biçilmiş sahələrin yandırılması hallarına yol verilməsi müşahidə edilir.***



Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi bütün bunları nəzərə alaraq bir daha sahibkarları, torpaq mülkiyyətçilərini və fermerləri biçindən sonra taxıl sahələrinin yandırılmamasını ciddi tövsiyə edir. Çünki taxıl biçini başa çatdıqdan sonra yerdə qalan saman və küləşin yandırılması yaxınlıqda yerləşən quru otlaq sahələrdə, yaşayış məntəqələrində, meşə ərazilərində və strateji əhəmiyyətli obyektlərə yüksək yanğın təhlükəsi yaratmaqla yanaşı, irimiqyaslı yanğınlara və mühəndis kommunikasiya sistemlərinin sıradan çıxmasına səbəb ola bilər.

Unutmayaq ki, samanın və eləcə də digər bitki qalıqlarının yandırılması ekoloji cəhətdən ziyandır, torpağın məhsuldarlığını aşağı salır. Biçindən sonra torpaqların şumlanması torpağın flora və faunası bitki qalıqlarını parçalayaraq torpağın münbitliyinin artmasına, qida maddələrinin mübadiləsinə səbəb olur, torpağın strukturunu yaxşılaşdırır və suyun torpaqda daha asan hərəkət etməsinə, nəmliyin toplanmasına imkan verir.

Yadda saxlamaq lazımdır ki, taxıl sahələrinin biçindən sonra yandırılması torpaqdakı üzvi maddələrin itirilməsinə, torpaq mikroflorasının məhv edilməsinə, bütövlükdə, torpaq münbitliyinin kəskin surətdə azalmasına səbəb olur. Belə ki, samanı yandırdıqda bütün üzvi birləşmələr yanır və gələcəkdə bitkilərin böyüməsi və inkişafı üçün lazım olan və toxumanın quru maddəsinin, təxminən, 95 faizini təşkil edən orqanogen elementlər qaz halında itir. Bu isə, öz növbəsində, torpağın münbitliyinə mənfi təsir edir. Yanğın zamanı yüksək temperaturun torpağın üst qatına təsiri nəticəsində humus ehtiyatını məhv edir və torpağın fiziki-kimyəvi xassələri dəyişir. Vahid sahədə saman 30-40 saniyədə yanır, amma bu qısa müddət zamanı torpağın üst qatının 360 dərəcəyə qədər yanmasına kifayət edir. Torpağın 5 santimetr qatında humus yanır, 10 santimetr qatında isə suyun buxarlanması baş verir. Eyni zamanda biçindən sonra taxıl sahələrinin yandırılması növbəti ildə həmin sahədə becəriləcək bitkilərin məhsuldarlığını 20-30 faiz azaldır.

Oxucuların diqqətinə çatdırırıq ki, İnzibati Xətalar Məcəlləsinə yeni əlavə edilmiş 244-1-ci maddəyə əsasən əkin yerini yandıran fiziki şəxslər 400 manatdan 600 manata, vəzifəli şəxslər 1500 manatdan 2000 manata, hüquqi şəxslər isə 5000 manatdan 6000 manatadək məbləğdə cərimə oluna bilərlər.

Bir məqamı da qeyd etmək istəyirik ki, artıq torpaq mülkiyyətçiləri, fermerlər və kənd sakinləri qışa tədarüklə bağlı sahələrdən mal-qara üçün yem ehtiyatı, yəni ot-saman tayaları yığırlar. Məhz həmin tayaları yığarkən də müəyyən edilmiş yanğın təhlükəsizliyi qaydalarına ciddi riayət edilməlidir. Belə ki, ot-saman tayalarını yaşayış evlərinin çardağına, zirzəmisinə, yardımçı təsərrüfat tikililərinə və elektrik xətlərinin altına yığmaq qəti qadağandır. Ot-saman tayaları yaşayış evlərindən, tikililərdən, elektrik xətlərindən və yollardan ən azı 20 metr aralı məsafədə xüsusi ayrılmış yerlərdə yerləşdirilməli, onun ətrafı çəpərlənməli, azyaşlı uşaqların oraya daxil olmasına və nəzarətsiz buraxılmasına yol verilməməlidir. Tayanın ətrafında və yaxınlığında tonqal qalamaq, siqaret çəkmək və açıq oddan istifadə etmək qəti qadağandır.

Bir daha yuxarıda qeyd edilən tövsiyələrə vaxtında ciddi riayət olunmasının zəruriliyini xatırladaraq bildiririk ki, hər hansı bir yanğın təhlükəsi ilə üzləşdikdə dərhal Fövqəladə Hallar Nazirliyinin ***"112"*** qaynar telefon xəttinə və ya Dövlət Yanğın Təhlükəsizliyi şöbələrinin ***"101"*** xidmətinə məlumat verilsin.

***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti***

### İtmişdir

Əlizadə İsgəndər Topçəli oğlunun adına olan motosikletin texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Qorçulu kəndində yaşamış Xəlilov Ələsgər Əli oğlunun adına verilmiş JN-189 inventar nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Qorçulu kənd sakini Xəlilov Vəli Əli oğlunun adına verilmiş JN-187 inventar nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Gülcamal Tahirova

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 636